# Mərhəmət və inam ünvanı

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasından 96 il ötür. Heydər Əliyevin adı müasir və müstəqil Azərbaycan dövlətinin memarı kimi tariximizə qızıl hərflərlə əbədi həkk olunub. Məhz ulu öndərin sayəsində Azərbaycan xalqı həm sovet dövründə, həm də müstəqillik dövründə müasir dövr tarixinin ən mühüm nailiyyətlərinə imza atıb.
Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizlə bölüşdülər.












## Ulu öndər daim böyük ehtiramla xatırlanır

**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Tarixdə o kəslərin izi qalır ki, onların şərəfli, mənalı və zəngin həyat yolunu dövlətin və xalqın tarixindən kənarda təsəvvür etmək mümkün deyil. Ümummilli lider Heydər Əliyev də Azərbaycan xalqının yetişdirdiyi nadir şəxsiyyətlərdən biri olaraq müasir tariximizin bütöv bir epoxasının müəllifidir. 1969-cu ildən başlanan bu epoxa özündə dövlətçiliyimizin inkişaf, yüksəliş və müstəqillik mərhələlərini birləşdirir.

Xalqımız müasir dövrdə tarixi dövlətçilik ənənələrini Heydər Əliyev epoxasında təkmilləşdirərək sistem halına salmış, millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını və özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir. Ona görə də həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi daim böyük ehtiramla xatırlanır. Anadan olmasının 96-cı ildönümündə xalqımız öz dahi oğlunun əziz xatirəsini qədirbilənliklə, minnətdarlıqla anır.

Azərbaycanın dərin iqtisadi və mənəvi böhran keçirdiyi 1969-cu ildə ölkəyə rəhbərliyə başlayan Heydər Əliyev işıqlı gələcəyə doğru aparan yolun əsasını qoydu. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq və milli intibah salnaməsinin ən dolğun və şərəfli səhifələrini təşkil edir. Tarixin həvalə etdiyi dövlətə və xalqa şərəfli xidmət missiyasını Heydər Əliyev 1993-cü ildən sonra da layiqincə davam etdirdi. Bu mənada xalqımız dövlətimizin müstəqilliyimizin qorunub saxlanılmasına, müasir dövlətçiliyimizin əsaslarının formalaşdırılmasına, Azərbaycanın bir dövlət olaraq müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasına görə Heydər Əliyevə minnətdardır. Öz tarixi missiyası ilə ulu öndər müasir Azərbaycan dövlətini yaratdı, xalqımızı yenidən müstəqilliyini itirməkdən, əsarət altında yaşamaqdan xilas etdi.

Bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu ilə inamla addımlayır, öz tarixinin yeni şərəfli səhifələrini yazır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 16 ildə qazanılan hər bir uğur göstərir ki, ulu öndərin ideyaları bu gün dövlətimizin yüksəlişinə, xalqımızın rifahına xidmət edir. Bu dövrdə gerçəkləşdirilən sosial-iqtisadi islahatların - davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrana əzmlə sinə gərən dövlətləri sırasına yüksəlmişdir. Cənab İlham Əliyevin elmi əsaslarla yeritdiyi sosial-iqtisadi strategiya nəticəsində cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində yüksək dinamizmi və məqsədyönlüyü təmin etmiş, hər bir mərhələ üçün qarşıda duran vəzifələrin həllinə real imkanlar açmışdır.

Qarşıya qoyduğu hədəflərə inamla yetişən, bütün sahələrdə yeniləşən respublikamız beynəlxalq aləmdə mövqelərini ildən-ilə möhkəmləndirir. Azərbaycan nəinki problemlərinin həllinə nail olur, hətta ümumregion əhəmiyyətli qlobal layihələri daxili imkanları hesabına gerçəkləşdirir. Dövlətimizin qazandığı bu möhtəşəm uğurlar həm də bizə Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə dərk etmək imkanı yaradır. Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. Ötən ilin aprelində keçirilən prezident seçkilərində xalqımızın cənab İlham Əliyevi yekdilliklə dəstəkləməsi bir daha təsdiqlədi ki, vətəndaşlar Heydər Əliyev yolunun davamına heç bir alternativi qəbul etmirlər. Ötən 16 ilin siyasi-iqtisadi-sosial mənzərəsi göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz rəhbər olduğunu təsdiqləmişdir.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması müasir qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir. Bu baxımdan 15 il öncə yaranan Heydər Əliyev Fondu ulu öndərin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ictimai həyatın ən müxtəlif sahələrində fundamental, çoxşaxəli layihələr həyata keçirir, hər bir vətəndaşın istək və arzularının gerçəkləşməsinə, problemlərinin həllinə həm maddi, həm də mənəvi dəstək verir. Dahi liderin yaradıcılıq irsinin təbliği və öyrənilməsi ilə yanaşı, fond xeyriyyəçiliyi və müxtəlif humanitar aksiyalar keçirməyi öz fəaliyyətinin prioritet istiqamətlərindən hesab edir. Odur ki, yarandığı gündən bu ali məqsədi qarşıya vəzifə kimi qoyan ulu öndərin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan saf ideallarının ictimai şüurda möhkəmlənməsinə çalışan Heydər Əliyev fondu fəaliyyətilə insanların ümid yerinə çevrilmişdir.

Respublikamızın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətimizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində layiqli yerini tutmasına doğru istiqamətlənmiş tədbirlərini inamla davam etdirir. Ən mühümü odur ki, fondun fəaliyyəti, həyata keçirdiyi hər bir tədbir, proqram və layihə nəticə etibarilə Prezident İlham Əliyevin yürütdüyü siyasi kursa layiqli töhfələr verir.

## Milli-mənəvi dəyərlərimizə yüksək ehtiramın nümunəsi

**Cavanşir PAŞAZADƏ,**
*Milli Məclisin deputatı:*

- Müasir Azərbaycan dövləti tarixinin ən sürətli inkişaf və yüksəliş dövrünü yaşamaqdadır. Eyni zamanda hər birimiz üçün olduqca qürurvericidir ki, bu gün respublikamız Cənubi Qafqazın lideri, dünyanın isə söz sahibi, qətiyyətli mövqeyi olan dövlətlərindəndir. Bütün bu tarixi uğurlarımızın əsası xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin liderliyi və müəllifliyi ilə qoyulub. Ona görə Heydər Əliyev epoxası tariximizə əbədi yazılmış dövlətçilik salnaməsidir.

Hələ sovet dövründən bu dahi şəxsiyyətin Azərbaycanda gördüyü nəhəng quruculuq işləri müstəqillik dönəminin ən böyük nailiyyətləri olmaqla ölkə tarixinin müasir dövrü üçün silinməz izlər buraxmışdır. Azərbaycan tarixinin şanlı salnaməsini yaradan, öz mənalı ömrünün böyük bir hissəsini doğma vətəninin və canından əziz bildiyi xalqının iqtisadi tərəqqisi, səadət və xoşbəxtliyi naminə mübarizəyə həsr edən Heydər Əliyevə olan sevgi və məhəbbət təkcə Azərbaycanda yaşayan 10 milyon yurddaşımızın deyil, vaxtilə müxtəlif ictimai-siyasi münaqişələr üzündən doğma vətənlərindən didərgin düşmüş 50 milyon soydaşımızın qəlbində yaşayır.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilən ulu öndər Heydər Əliyev ilk gündən respublikanın iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı təxirəsalınmaz islahatlara başladı. Ulu öndər respublikamızda iqtisadi inkişafla yanaşı, milli-mənəvi ruhu yüksəltməklə, azərbaycanlıların öz tarixi ənənələrinə, köklərinə bağlılığını sürətləndirməyə çalışırdı. Bu məqsədlə ulu öndər hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqın milli özünüdərki üçün cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişlərə ruhlandırır, milli heysiyyəti gücləndirmək, insanları şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin mədəni irsini yaşatmaq naminə bir sıra tədbirləri reallaşdırdı.

Sovet dövründən bu ağır və taleyüklü missiyanı üzərinə götürən Heydər Əliyev müstəqillik dövründə də milli-mənəvi dəyərlərimizin böyük hamisi kimi çıxış etdi. Bu mənada, ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik dövrü təkcə ölkənin siyasi, sosial-iqtisadi, mədəni böhrandan qurtuluşu, demokratik islahatların, hüquqi dövlət quruculuğu proseslərinin uğurla həyata keçirilməsi ilə xarakterik olmadı. Cəmiyyətin milli-mənəvi dəyərlərimizə, o cümlədən islama münasibətinin düzgün və sağlam əsaslarla formalaşdırılmasının əsası da məhz bu dövrdə qoyuldu. Məhz Heydər Əliyevin əsasını qoyduğu sağlam dövlət-din münasibətlərinin nəticəsi olaraq bu gün dünyanın ayrı-ayrı ölkələrində olduğu kimi islam dininin alətə çevrilərək gözdən salınmasına imkan verilmədi. Ölkəmizdə bu sahədə həyata keçirilən siyasət, dövlət-din münasibətlərinin Azərbaycan modeli xalqın və dövlətin maraqları üzərində qurularaq özünün mənəvi saflığı ilə bütün ziyanlı ideologiyaların, arzuolunmaz dini-siyasi məqsədlərin qarşısını alaraq sipər oldu.

Xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi, ölkəmizdə dövlət və din arasında anlaşmanın bütün dünya üçün parlaq bir örnəyinin yaradılması Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm nailiyyətləri sırasında yer alır. Bütün bunlar dünyada islam həmrəyliyinin gücləndirilməsinə, beynəlxalq səviyyədə islam dəyərlərinin müdafiəsinə böyük töhfə verir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksəksəviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

Ölkədə son illərdə həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri müqəddəs dini ocaqlarımızdan da yan ötməyib. Prezident İlham Əliyev tarixi-mədəni irsimizin yaşadılmasına və milli-mənəvi dəyərlərimizin dirçəldilməsinə qayğı ilə yanaşaraq bu məqsədlə son 15 ildə dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına böyük diqqət ayırıb. Bunun nəticəsidir ki, Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. Eramızın 743-cü ilində inşa olunan və Cənubi Qafqazda, eləcə də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Gəncədəki "İmamzadə" dini-mədəniyyət kompleksində təmir-bərpa işləri aparılıb. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar. Son illərdə Bakıda Azərbaycanın ən böyük məscidi olan Heydər məscid-kompleksinin, işğaldan azad olunmuş Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan yeni məscidin inşa olunması dövlətimizin mənəvi dəyərlərə verdiyi önəmin təsdiqidir.

Xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması bu günlərdə fəaliyyətə başlamasının 15-ci ili tamam olan Heydər Əliyev Fondunun da fəaliyyətində prioritet istiqamətlərdən biridir. Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli fəaliyyətin bir istiqamətini də məhz mənəvi dəyərlərimizin dünyada təbliği və islam həmrəyliyinin möhkəmləndirilməsi təşkil edir. Bu məqsədlə fondun təşəbbüsü və təşkilatçılığı ilə indiyədək bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi orta məktəbin yenidən qurulması layihəsi də məhz islam həmrəyliyinə xidmət edir. Bu istiqamətdə genişmiqyaslı və fədakar fəaliyyətinə, islam aləmində görülən işlərə böyük dəstəyinə görə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva hələ 2006-cı il noyabrın 24-də ISESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.

Ölkəmizdə təhsilin və səhiyyənin inkişafına dəstək verməklə, xeyriyyəçilik tədbirləri, eləcə də Azərbaycanın dünyada təbliğinə xidmət edən layihələr həyata keçirməklə yanaşı, tolerantlıq məsələləri Heydər Əliyev Fondunun fəaliyyətində başlıca yer tutur. Bu da ondan irəli gəlir ki, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Heydər Əliyev Fondu isə fəaliyyəti ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına, ölkəmizdə formalaşmış gözəl ənənəyə töhfələrini verməkdədir.

Uğurla həyata keçirilən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılıb. Şamaxı Cümə məscidi də Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı: Azərbaycan" layihəsi çərçivəsində yenidən qurulmuşdur. Bundan başqa, Mərdəkanda və Buzovnada Cümə məscidlərinin, Pir Həsən ziyarətgahının və Comərd Qəssab türbəsinin yenidən qurulması, Cavad xanın məqbərəsinin inşası, Tbilisidə Azərbaycanın görkəmli şəxsiyyətlərinin qəbirüstü abidələrinin, Gəncə qapılarının yenidənqurulması, Moskvada Mirzə Fətəli Axundzadənin, Romada Nizami Gəncəvinin abidəsinin qoyulması Heydər Əliyev Fondunun milli və mənəvi dəyərlərimizin qorunmasına, mədəniyyətimizin inkişafına yönəlmiş fəaliyyətinin ayrı-ayrı nümunələridir.

Bütövlükdə, milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı ölkədə görülən işlər onu deməyə əsas verir ki, Heydər Əliyevin ideyaları layiqincə davam etdirilir. Bu sahədə həyata keçirilən hər bir tədbir həm də cəmiyyətimizdə Azərbaycan dövlətinin mütərəqqi siyasətini tam qabarıqlığı ilə əks etdirən sağlam mənəvi durumun təzahürüdür.

## Güclü Azərbaycan naminə

**Nəriman ƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Azərbaycanın davamlı inkişaf yolunda olması müasir tariximizin ən böyük reallığıdır. Hətta indiyədək baş vermiş beynəlxalq böhranlar da ölkəmizdə inkişaf mərhələsinin qarşısını ala bilməmiş, əslində yeni islahatların nəticəsində inkişaf templərini bərpa etmişdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev aprelin 30-da keçirilən Nazirlər Kabinetinin iclasında son 15 ildə iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmadığını bildirmişdi.

Biz Azərbaycanın qürurverici yüksəlişindən danışanda bugünkü uğurlarımıza yol açan strategiyanın müəllifi olan ulu öndər Heydər Əliyevi ehtiramla anırıq. Bəli, xalqımız əldə etdiyi bütün möhtəşəm nailiyyətlərinə görə məhz ümummilli lider Heydər Əliyevə minnətdardır. Anadan olmasının 96-cı ildönümündə Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinə nəzər salır və bir daha görürük ki, tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan dövlətçiliyinin əsaslarının yaradılması, dövlət müstəqilliyimizin təmin olunması və möhkəmlənməsi mərhələsidir.

Uğurla reallaşdırılan Heydər Əliyev strategiyasının nəticəsi olaraq ötən 16 ildə ölkədə tarazlı və davamlı inkişafın təmin edilməsi və əldə edilən uğurlar nəticəsində respublikamız beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Heydər Əliyevin layiqli siyasi davamçısı kimi Prezident İlham Əliyev bütün sahələrdə ölkəmizin inkişafına nail olmaqla ulu öndərin arzularını reallığa çevirmişdir. Ötən 16 ilin statistikasına nəzər salsaq, qürur doğuran nailiyyətlərin qazanıldığını görərik. Ən mühüm uğurlarımızın sırasında Azərbaycanda ümumi daxili məhsul istehsalının 3,3 dəfə artımını xüsusi qeyd etməliyik. ÜDM-in tərkib hissəsi olaraq ölkənin sənaye potensialı 2,6 dəfə çoxaldı ki, bu da nümunəvi inkişaf yolunun mühüm göstəricisidir. Valyuta ehtiyatlarımızın bu dövrdə 24 dəfə artaraq 45 milyard dollara çatması, iqtisadiyyata 250 milyard dollar sərmayənin yatırılması, 100 mindən çox müəssisənin yaradılması, 15 min kilometrdən çox avtomobil yolunun çəkilməsi və ya yenidən qurulması kimi diqqətəlayiq göstəricilərin hər biri keçdiyimiz şərəfli inkişaf yolunun ayrı-ayrı səhifələridir. Bu, ümumiyyətlə analoqu olmayan yüksəliş nümunəsidir.

Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz hər sahədə Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. 2004-cü il may ayının 10-da yaranan Heydər Əliyev Fondu ulu öndərin ideyalarının davam etdirilməsi məqsədlərinə xidmət edir.

Heydər Əliyev Fondunun fəaliyyətə başlamasından 15 il ötür. 15 il böyük zaman kəsiyi sayılmır. Lakin bu dövrdə ortaya qoyduğu fəaliyyət nümunələri ilə fond Azərbaycanın həyatında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə və regionda analoqu olmayan ictimai qurum olduğunu sübut edib. Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə bu müddətdə Heydər Əliyev Fondunun gördüyü işlər, həyata keçirdiyi layihələr doğurdan da olduqca geniş spektrli, maraqlı və rəngarəngdir.

Heydər Əliyev Fondu ulu öndərin ideyalarını rəhbər tutaraq ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirir. Nəcib əməlləri ilə xeyirxahlıq ünvanına çevrilən, hər bir azərbaycanlının qürur yeri olan fond bundan sonra da öz fəaliyyəti ilə ümummilli lider Heydər Əliyevin adını yaşadacaq, Prezident İlham Əliyevin güclü Azərbaycan naminə yürütdüyü siyasi kursa layiqli dəstək verəcək.

## Heydər Əliyev siyasi xətti bugünkü və gələcək inkişafın yeganə etibarlı təminatıdır

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı,*
*YAP Ağdaş rayon təşkilatının sədri:*

- Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq unudulmaz tarixdir. Hər birimiz üçün əziz olan ulu öndərin doğum günü ərəfəsində bu böyük dühanın Azərbaycan dövləti və xalqı qaşısında xidmətlərinə nəzər yetirməklə həm də bu böyük şəxsiyyətin xatirəsinə öz ehtiramımızı ifadə edirik.

Ulu öndər fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və vətəndaşın mənafeyinə xidmət edib, Azərbaycanın bütövlüyü uğrunda, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması üçün fədakarlıqla çalışıb, mümkün ola bilən hər şeyi edib. Heydər Əliyev hələ sovetlər birliyində yaşadığımız illərdə respublikamızın iqtisadi inkişafı, cəmiyyətimizdə milli ruhun, özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qayıtması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi üçün əlindən gələni edib və bir rəhbər kimi əsaslı zəmin yaradıb. Sərt sovet rejiminin qadağalarına baxmayaraq cəsarətlə Azərbaycanda milli ruhun sıxışdırılmasına nəinki yol verib, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarıb. Ulu öndər həyat amalının xalqa layiqli xidmətdən ibarət olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirməklə yanaşı, gələcək müstəqilliyə də etibarlı zəmin formalaşdırıb.

Müstəqil, dünya birliyinin tanıyıb ehtiram etdiyi Azərbaycan dövlətini yaratmaq xilaskar kimi ulu öndər Heydər Əliyevə nəsib oldu. Ümummilli lider 1993-cü ildə ölkəmizin çətin bir vaxtında heç kimin öhdəsindən gələ bilməyəcəyi məsuliyyəti üzərinə götürməklə Azərbaycanın əbədi müstəqilliyini təmin etdi. Onun hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Ulu öndər müasir Azərbaycanın qurucusu, memarı kimi tanındı, milyonların ehtiramını qazandı.

Ümummilli lider Azərbaycan xalqına son müraciətində İlham Əliyevin özünün siyasi varisi olduğunu bəyan edərək demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Müraciətdən ötən illər bir daha təsdiq etdi ki, böyük öndər nə qədər haqlı imiş. Qədirbilən xalqımız 2003, 2008-2013 və 2018-ci ilin prezident seçkilərində öz səsini cənab İlham Əliyevə verməklə Heydər Əliyev ideyalarının davam etdirilməsinə nail oldu. Ulu öndərin ideyalarının həyata vəsiqə almasının, Prezident İlham Əliyevin müdrik rəhbərliyinin nəticəsidir ki, davamlı inkişaf, tərəqqi və yüksəliş müasir Azərbaycanın gündəmini müəyyən edən əsas proseslərdir.

Xalqımız Heydər Əliyevin xatirəsini ehtiramla xatırlayır, onun ideyalarından daim bəhrələnir. 2004-cü ilin may ayından fəaliyyətə başlayan Heydər Əliyev Fondunun da məqsədi ulu öndərin müəyyən etdiyi siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək verməkdir. Fond köməyə ehtiyacı olan insanların maddi-mənəvi hamisi rolunda çıxış edir, cəmiyyətdə yalnız sağlam ənənələrin, əxlaqi dəyərlərin möhkəmlənməsinə çalışır.

Xeyriyyəçilikdən tutmuş səhiyyə və təhsil sisteminin, mədəniyyət və incəsənətin inkişafı, mədəniyyətimizin və mədəni irsimizin dünyada təbliği, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, amnistiya təşəbbüsçüsü olmağa qədər müxtəlif sferalarda məhsuldar fəallıq nümayiş etdirməklə fond ulu öndərin ideyalarına ləyaqətlə xidmət etdiyini təsdiqləyib. Məhz Birinci vitse-prezident Mehriban Əliyevanın əzmkar rəhbərliyinin nəticəsidir ki, fond öz fəaliyyəti ilə ölkəmizin dünyadakı yüksək imicinin formalaşmasına böyük töhfələr verir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoyub. Dövlətimiz öz iqtisadi nailiyyətləri ilə dünyanın qabaqcılları sırasındadır. Qazandığımız hər bir uğur həm də onu təsdiqləyir ki, alternativi olmayan Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***